# Məktəbəqədər təhsilin əhatəliliyi genişləndirilir

## "İcra qrupları vasitəsilə məktəbəqədər və ibtidai təhsilin yaxşılaşdırılması" layihəsinin təqdimatı olub



**Rəşad ZİYADOV**

Erkən yaş dövrü uşaq şəxsiyyətinin inkişafının elə bir mərhələsidir ki, bu zaman uşağın ətraf mühit haqqında təsəvvürləri formalaşır, o, fiziki və psixoloji cəhətdən intensiv surətdə inkişaf edir. Erkən yaş dövründə təhsil uşağın dünyaya gəldiyi ilk aylardan öyrənməyə can atmasından başlayır. Bunun üçün də uşaqların məktəbəqədər və ibtidai təhsil alması çox vacibdir. Bu fikirlər oktyabrın 2-də Avropa İttifaqının maliyyələşdirdiyi və YUNİSEF-in dəstəyi ilə Təhsil İnstitutu tərəfindən icra olunan "İcra qrupları vasitəsilə məktəbəqədər və ibtidai təhsilin yaxşılaşdırılması" layihəsinin təqdimat mərasimində səsləndirilib. Qeyd olunub ki, tədbirin keçirilməsində məqsəd məktəbəqədər təhsilin əhəmiyyətini və bu sahədə ötən 1 il ərzində görülən işləri ictimaiyyətin diqqətinə çatdırmaq olub.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, YUNİSEF-in Azərbaycandakı nümayəndəsinin müavini Min Yuan, millət vəkilləri və digər qonaqlar iştirak ediblər.

Əvvəlcə layihənin təqdimat videosu nümayiş etdirilib.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva dövlət təhsil siyasətinin strateji istiqamətlərindən biri olan məktəbəqədər təhsilin əhəmiyyətindən və bu sahədə əldə edilmiş nailiyyətlərdən danışıb. Təhsil nazirinin müavini erkən yaş dövründə öyrənilən hər bir bacarıq və vərdişin uşağın məktəbdə oxumasına, eləcə də sonrakı həyatı boyu necə öyrənməsinə böyük təsir göstərdiyini vurğulayıb. "Məktəbəqədər təhsil, evdə öyrənmə mühiti valideynlərin uşaqların təhsilində iştirakı şagirdlərin təlim nailiyyətinə çox ciddi təsir göstərir və onların gələcək təhsillərində xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan ölkəmizdə həyata keçirilən bu layihənin başlanmasının ciddi səbəbləri var. Belə ki, Təhsil Nazirliyi beynəlxalq PİRLİS, PISA, PIRLS və TIMSS qiymətləndirilməsində davamlı şəkildə iştirak edir. Həmin qiymətləndirmənin bu üç meyar üzrə göstəriciləri heç də ürəkaçan deyil. Təəssüf olsun ki, ölkəmizdə məktəbəqədər təhsilə cəlb olunan 3-4 yaşlı uşaqlar ölkə əhalisinin cəmi 15 faizini təşkil edirdi ki, bu da göstəricilərin aşağı səviyyədə olmasının əsas göstəricilərindən biridir".

Nazir müavini M.Vəliyeva Azərbaycanda məktəbəqədər təhsil səviyyəsinin inkişafı istiqamətində mühüm addımlar atıldığını və son üç ildə 5 yaşlı uşaqların məktəbəqədər təhsilə cəlb olunma göstəricisinin 24 faizdən 75 faizə kimi artırıldığını qeyd edib.

Təhsil Nazirliyinin Təhsilin inkişafı proqramları şöbəsinin müdiri Emin Əmrullayev çıxış edərək layihə ilə bağlı ətraflı məlumat verib. Emin Əmrullayev bildirib ki, layihə çərçivəsində 10 rayonda 50 icma seçilib, hər icmada orta hesabla 20 nəfər 3 və 4 yaşlı uşaq layihəyə cəlb olunub. Bildirilib ki, icma əsaslı məktəbəqədər təhsil təhsilin ilk addımlarından başlandığından bizim üçün çox əhəmiyyətlidir. "Biz məktəbəqədər hazırlığa gedən uşaqlarla getməyənlər arasında fərqə baxanda məlum olur ki, riyaziyyat və ana dilindən uşaqların göstəriciləri tam fərqlidir. Məktəbəhazırlığa getməyən uşaqlar daha aşağı nəticə göstərirlər".

YUNİSEF-in Azərbaycandakı nümayəndəsinin müavini Min Yuan icrasına başlanılan bu yeni təşəbbüs sayəsində ölkədə uşaqların məktəbəqədər təhsilə cəlbinin əhəmiyyəti barədə danışıb. O, diqqətə çatdırıb ki, YUNİSEF hər zaman məktəb yaşına çatmamış uşaqlar üçün yeni kurikulum və tədris materiallarının işlənib hazırlanmasında, yeni metodologiyalar üzrə təlimlər keçirilməsində Təhsil Nazirliyinə dəstək göstərib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas isə öz növbəsində deyib ki, Azərbaycanda uşaqların məktəbəqədər təhsildən yararlana bilməsi üçün imkanlar yaradılır və bunun üçün Avropa ölkələrinin ən yaxşı modelləri axtarılır.

Daha sonra layihə ilə bağlı təqdimatlar olub, digər çıxışlar dinlənilib.

Qeyd edək ki, layihənin həyata keçirilməsində əsas məqsəd icma əsaslı vətəndaş qrupları vasitəsilə məktəbəqədər təhsilin əhatəliliyini artırmaq və valideynlərin məktəbəqədər təhsil xidmətlərinin monitorinqində fəal iştirakını təmin etmək, şəffaflıq və hesabatlılığın, eləcə də məktəb-cəmiyyət münasibətlərinin gücləndirilməsinə nail olmaqdır.

2018-2019-cu tədris ilində icma əsaslı məktəbəqədər təhsil qrupları Bakı şəhəri və 10 rayonda 100 icmada 2 mindən çox uşağı əhatə etməklə fəaliyyətə başlayıb. Cari tədris ilində isə bu qrupların sayının artırılaraq 300-ə, uşaqların isə 6000 nəfərə çatdırılması nəzərdə tutulur.